# AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

Azərbaycan Respublikasının
Təhsil Nazirliyinin
_____ nömrəli 24.08 2020-ci il
tarixli qərarı ilə təsdiq edilmişdir.

VƏTƏNDAŞLARIN MÜRACİƏTLƏRİ VƏ KOMMUNİKASİYA ŞÖBƏSİ
AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
ƏSLİ İLƏ DÜZDÜR

# BAKALAVRİAT SƏVİYYƏSİNİN (ƏSAS (BAZA) TƏHSİLİNİN) İXTİSAS ÜZRƏ

# TƏHSİL PROQRAMI

**İxtisasın (proqramın) şifri və adı: 050710 – Yerquruluşu və daşınmaz əmlakın kadastrı**

**BAKI – 2020**

**BAKALAVRİAT SƏVİYYƏSİNİN (ƏSAS (BAZA) TƏHSİLİNİN) İXTİSAS ÜZRƏ TƏHSİL PROQRAMININÇƏRÇİVƏ SƏNƏDİ**

## 1. Ümumi müddəalar

1.1. Bakalavriat səviyyəsinin (əsas (baza) təhsilinin) 050710 – "Yerquruluşu və daşınmaz əmlakın kadastrı" ixtisası üzrə Təhsil Proqramı (bundan sonra ixtisas üzrə Təhsil Proqramı) "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müvafiq qərarlarına, eləcə də "Ali təhsilin bakalavriat (əsas (baza) təhsili) səviyyəsi üzrə ixtisasların (proqramların) Təsnifatı"na uyğun hazırlanmışdır.

1.2. Təhsil Proqramının məqsədləri aşağıdakılardır:

- İxtisas üzrə məzunun kompetensiyalarını, ixtisasın çərçivəsini, fənlər üzrə təlim və öyrənmə metodlarını, qiymətləndirmə üsullarını, təlim nəticələrini, kadr hazırlığı aparmaq üçün infrastruktura və kadr potensialına olan tələbləri, tələbənin təcrübəkeçmə, işə düzəlmə və təhsilini artırma imkanlarını müəyyənləşdirir;
- Tələbələri və işəgötürənləri məzunların əldə etdiyi bilik və bacarıqlar, eləcə də təlim nəticələri barədə məlumatlandırmaq;
- Təhsil Proqramı üzrə kadr hazırlığının bu proqrama uyğunluğunun qiymətləndirilməsi zamanı bu prosesə cəlb olunan ekspertləri məlumatlandırmaq.

1.3. Təhsil Proqramı tabeliyindən, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq Azərbaycan Respublikasında fəaliyyət göstərən və həmin ixtisas üzrə bakalavr (əsas (baza)) hazırlığını həyata keçirən bütün ali təhsil müəssisələri üçün məcburidir.

1.4. Tələbənin 5 (beş) günlük iş rejimində həftəlik auditoriya və auditoriyadankənar ümumi yükünün həcmi 45 saatdır (xüsusi təyinatlı ali təhsil müəssisələri istisna olmaqla). Həftəlik auditoriya saatlarının həcmi ümumi həftəlik yükün 50%-dən çox olmamalıdır. İxtisasın xüsusiyyətindən asılı olaraq həftəlik yükün həcmi dəyişdirilə bilər.

## 2. Məzunun kompetensiyaları

2.1. Təhsil Proqramının sonunda məzunaşağıdakı ümumi kompetensiyalara yiyələnməlidir:

- ixtisası üzrə Azərbaycan dilində şifahi və yazılı kommunikasiya bacarıqlarına;
- ixtisası üzrə ən azı bir xarici dildə kommunikasiya bacarıqlarına;
- Azərbaycan dövlətçiliyinin tarixi, hüquqi, siyasi, mədəni, ideoloji əsasları və müasir dünyadakı yeri və roluna dair sistemli və hərtərəfli biliklərə, milli dövlətimizin perspektiv inkişafını proqnozlaşdırma qabiliyyətlərinə;
- milli dövlətimizin qarşılaşdığı təhdidləri və çağırışları müəyyən etmə bacarıqlarına;
- iş yerində informasiya texnologiyalarından istifadə etmək qabiliyyətinə;
- komandada iş, problemin həllinə ortaq yanaşmaya nail olmaq qabiliyyətinə;
- yeni şəraitə uyğunlaşmaq, təşəbbüs irəli sürmək qabiliyyətinə və uğur qazanmaq iradəsinə;
- məsələlərin həlli üçün əlavə məlumat resurslarını müəyyən etmək və seçə bilmək qabiliyyətinə;
- peşəkar məqsədlər üçün müvafiq məlumatı təhlil etmək, ümumiləşdirmək və tətbiq etmək bacarıqlarına;
- peşəkar fəaliyyətini planlaşdırmaq və təşkil etmək, gələcək təhsilini və mövcud bacarıqlarını təkmilləşdirilmək, vaxtı idarə etmək və tapşırıqları vaxtında tamamlamaq qabiliyyətinə;

- fəaliyyətində sosial və ekoloji məsuliyyətə, eləcə də vətəndaş şüuru və etik yanaşmaya, həmçinin keyfiyyətə üstünlük vermək bacarığına;
- bilik və bacarıqlarını inkişaf etdirmək məqsədilə vəziyyəti və özünü yenidən qiymətləndirməkvə özünütənqid bacarığına.

2.2. **Bakalavrın ixtisas xarakteristikası**

Bakalavr:

- bakalavrın fundamental və peşə hazırlığına uyğun olaraq ixtisası üzrə iş sahələrində peşə fəaliyyətinə, eləcə də ixtisas üzrə magistraturada təhsil almağa hazır olmalıdır;
- mülkiyyət formasından və tabeçiliyindən asılı olmayaraq peşəsinə və ixtisas dərəcəsinə uyğun gələn istənilən istehsal sahələri, təşkilatlar, idarələr, müəssisələr, birliklər və s. işləyə bilməlidir;
- mövcud qaydalara riayət olunmaqla müxtəlif təhsil müəssisələrində (ali məktəbdə elmi, elmi-pedaqoji fəaliyyət sahələri istisna olmaqla) çalışa bilməlidir.

**Proqramın mənimsənilməsi nəticəsində məzunun kompetensiyasına qoyulan tələblər.**

Məzun aşağıdakı kompetensiyalara yiyələnməlidir:

- məntiqi təfəkkürə malik olmalı, riyazi qayda və qanunları tətbiq etməyi, mövcud olan riyazi üsullardan istifadə etməyi və nəticələrin işlənməsi üçün riyazi metodları tətbiq etməyi, mexanika və təbiət elmlərindən sadə sistem və proseslərdə riyazi modellərdən istifadə etməyi, eksperimental nəticələrin işlənib hazırlanmasında əsas üsullardan istifadə etməyi, riyazi fizikanın əsas tənliklərinin analitik və ədədi həllərini aparmağı bacarmalıdır;
- fiziki obyekt olan kainat və onun təkamülünü, fizikada nəzəri və eksperimental araşdırmaların metodları və onlardan istifadə etməyi, təbiətdə fasiləsizlik və diskretlik, qanunauyğunluq, obyektlərin quruluşunun ardıcıllığı, təbiət sistemlərini obyektiv xarakterizə edən ehtimal nəzəriyyələri, təbiət elmlərində fundamental sabitlər, simmetriyanın və enerjinin saxlanması prinsipləri, təbii hal və onun zamandan asılı olaraq dəyişilməsi, təbiətdə obyektlərin fərdi və birgə hərəkətlərini bilməlidir;
- layihələndirilən və mövcud istehsalın ekoloji təhlükəsizliyi, istehsallarda xüsusi təhlükəli və antropogen amillərin kəmiyyət və keyfiyyət təhlili üsulları, qəza və təbii fəlakət nəticələrinin qarşısının alınmasına və aradan qaldırılmasına yönəlmiş tədbirlərin elmi və təşkilati əsasları haqqında təsəvvür və məlumat əldə etməyi bacarmalıdır;
- yerquruluşu və daşınmaz əmlakın kadastrının müasir proqram təminatının alqoritimlərini inkişaf etdirmək və realizə etməyi bacarmalıdır;
- torpaq münasibətlərinin formalaşması, inkişafı qanunauyğunluqlarını, bazar iqtisadi münasibələri şəraitində torpaq ehtiyatlarının idarə edilməsinin bazar, iqtisadi, təşkilatı və hüquqi mexanizmini bilməlidir;
- torpaq ehtiyatlarından səmərəli istifadənin və onların mühafizəsinə dair proqnozların hazırlanmasını, torpaqların və digər daşınmaz obyektlərin monitorinqinin aparılmasını bacarmalıdır;
- torpaq və digər daşınmaz obyektlər üzərində subyektlərin mülkiyyət hüquqlarının qeydiyyatına dair kadastr sənədlərinin hazırlanmasını, torpaq ehtiyatlarından istifadəyə dair layihələrin ekoloji ekspertizasının aparılması prinsiplərini bilməlidir;
- ekoloji landşaft planlaşdırılmasına dair layihələndirmə işlərinin yerinə yetirilməsini bacarmalıdır;
- şəhər təsərrüfatının və tikili ərazilərin kadastrının geodezi təminatının müasir texnologiyasına yiyiələnməli, torpaq və daşınmaz əmlakın kadastrının aparılmasını bilməlidir;

- yerquruluşu istehsalatının təşkili qanunauyğunluqlarını, yerquruluşu işlərinin təşkili və planlaşdırılmasının üsul və vasitələrini bilməlidir;
- torpaqların elektron kadastr uçotu informasiya sistemini yaratmağı bacarmalıdır;
- daşınmaz əmlakın kadastrının istehsalat prosesinin mərhələlərini bilməlidir;
- daşınmaz əmlakın kadastrının müasir proqram komplekslərində alqoritmləri inkişaf etdirməyi və realizə etməyi bacarmalıdır;
- daşınmaz əmlakın qiymətləndirilməsi qaydalarını və Azərbaycan Respublikası üzrə vahid daşınmaz əmlakın dövlət reyesrinin aparılması qaydalarını bilməlidir;
- kompüter proqramlarından istifadə etməklə yer quruluşunun, kadastr xəritələrinin tərtibini bacarmalıdır;
- yer üzərində müxtəlif ərazilərin plan və xəritələrinin hazırlanması, dövlət geodeziya və yerli əhəmiyyətli xüsusi geodeziya şəbəkələrinin salınması, inkişafı və bərpası üçün aparılan geodeziya ölçmələrinin prinsiplərini bilməlidir;
- AutoCAD və ArcGİS-də proqram tərtib edə bilməyə, model yarada bilməyə və CİS layihələrində qarşılaşılacaq spesifik işlərin asan və çevik həll bacarıqlarına yiyələnməlidir;
- aerofotoqrammetriya metodu ilə fotoqrammetrik xəritə, ortofoto, rəqəmli yüksəklik modelinin yaradılmasını bacarmalıdır;
- Erdas LPS, PhotoMOD, TALK proqram təminatlarından istifadə edərək ortofotonu yarada bacarmalıdır;
- kartoqrafik proyeksiyaların, tematik və rəqəmli xəritələrin hazırlanması texnologiyalarını, riyazi kartoqrafiya və kartoqrafik modelləşmənin yerinə yetirilmə prinsiplərini bilməlidir;
- icra olunmuş kadastr işlərinin dəqiqliyinin riyazi təhlilinə yiyələnməlidir;
- yerquruluşu və daşınmaz əmlakın kadastrı ixtisasının bazası əsasında müasir elmi yeniliklərə yiyələnməli, yeni texnoloji prosesləri təhlil etməyi bacarmalıdır;
- yerquruluşu və daşınmaz əmlak sahəsində müasir texnologiyaları analiz etməyi və lazım gəldikdə tətbiq etmək bacarığına yiyələnməlidir;
- texniki, maliyyə və insani amilləri nəzərə almaqla istehsalat münasibətləri və idarəetmə prinsipləri biliklərinə yiyələnməlidir;
- yerquruluşu və daşınmaz əmlak sahəsində inkişaf etmiş ölkələrin normaları ilə işləmək bacarığına yiyələnməlidir;
- xarici ölkə mütəxəssisləri tərəfindən yerinə yetirilmiş layihələri təhlil, analiz və ekspertyiza etmək və lazım gəldikdə yerli şəraitə uyğunlaşdıra bilməyi bacarmalıdır.

## 3. Təhsil Proqramının strukturu

3.1. Təhsil Proqramıixtisasdan asılı olaraq minimum 240 (4 il) AKTS kreditindən ibarət olmalıdır. Kreditlər aşağıdakı şəkildə bölüşdürülür:

| **Fənlərin sayı** | **Fənnin adı** | **AKTS krediti** |
|---|---|---|
| | **Ümumi fənlər** | **30** |
| 1 | **Azərbaycan tarixi**<br>Bu fənn Azərbaycanın dövlətçilik ənənələrinin yaranması, formalaşması və inkişafını öyrənir, Azərbaycan dövlətçiliyinin formalaşmasında siyasi, ideoloji, iqtisadi, mədəni amillərin rolu təhlil və tədqiq edilir. Müasir dünyada Azərbaycan dövlətinin yeri və rolu sistemli təhlil edilir. | 5 |

| | | |
|---|---|---|
| 2 | **Azərbaycan dilində işgüzar və akademik kommunikasiya**<br>Bu fənn cərçivəsində tələbələrə Azərbaycan dilində təqdimat etmək, natiqlik, akademik və işgüzar yazı bacarıqlarının aşılanmasına xüsusi diqqət yetirilməlidir. | 4 |
| 3 | **Xarici dildə işgüzar və akademik kommunikasiya**<br>Bu fənn çərçivəsində tələbələrə ixtisası üzrə xarici dillərdən birində təqdimat etmək, natiqlik, akademik və işgüzar yazı, şifahi və yazılı bacarıqların aşılanmasına xüsusi diqqət yetirilməlidir. | 15 |
| | **Seçmə fənlər** (Seçmə fənlər ali təhsil müəssisəsi tərəfindən müəyyən edilir. İxtisasın spesifikasından asılı olaraq seçmə fənlərə əlavələr edilə bilər.) | **6** |
| 4 | Fəlsəfə<br>Sosiologiya<br>Azərbaycan Respublikasının Konstitusiyası və hüququn əsasları<br>Məntiq<br>Etika və estetika<br>Multikulturalizmə giriş | 3 |
| 5 | İnformasiya texnologiyaları (ixtisas üzrə)<br>İnformasiyanın idarə edilməsi<br>Sahibkarlığın əsasları və biznesə giriş<br>Politologiya | 3 |
| | **İxtisas fənləri** | **120** |
| 6 | **Riyaziyyat**<br>Bu fənn kompleks ədədlər, matrislər və determinantlar, xətti fəza və onun bazisi, xətti cəbri tənliklər və onların həlli üsulları, xətti çevirmələr və kvadratik formalar, müstəvidə və fəzada Dekart koordinat sistemi, analitik həndəsənin sadə məsələləri, vektorlar cəbrinin elementləri, düz xəttin və müstəvinin tənlikləri, ikitətibli cəbri xətlər və səthlər haqqında bilikləri, çoxluqlar nəzəriyyəsinin elementlərini, ardıcıllığın limiti anlayışını, diferensial tənliklərinin ədədi üsullarla həlli metodlarını, hadisələr və onlar üzərində əməlləri, ehtimalın müxtəlif təriflərini və onun hesablanma qaydalarını, tam ehtimal və Bayes düsturlarının tətbiqini, diskret və təsadüfi kəmiyyətlərin paylanma qanunlarını və onların ədədi xarakteristikalarını, böyük ədədlər qanunu və mərkəzi limit teoremlərinin əsas mahiyyətini, riyazi stataistikanın əsas elementlərini. palanma parametrlərini seçməyə görə statistik təyinini, normal paylanma ilə əlaqəli qanunları öyrədir. | 10 |
| 7 | **Fizika**<br>Bu fənn klassik mexanika, o cümlədən vektor cəbr, hissəcik kinematikası və dinamikası, enerji və təcil, qorunma qanunları, fırlanma dinamikası, salınma hərəkəti, cazibə, termodinamika və qazların kinetik nəzəriyyəsi, elektrostatiklər, o cümlədən keçiricilər və izolyatorlar; DC dövrələri; maqnit qüvvələri və sahələri; hərəkət edən yüklərin və cərəyanların maqnit təsiri; elektromaqnit induksiyası; Maksvellin tənlikləri: elektromaqnit salınımları və dalğaları, həndəsi və fiziki optikaları öyrədir. | 5 |
| 8 | **İnformatika**<br>Bu fənn kompüter texnologiyasının texniki və proqram vasitələrini, alqoritmləşdirmə və proqramlaşdırmanın əsaslarını, müasir proqramlaşdırma sistemlərindən birini və həmin sistemin köməyi ilə ixtisasa aid məsələlərin kompüter həllini öyrədir. | 4 |

| | | |
|---|---|---|
| 9 | **Ekologiya**<br>Bu fənn təbii mühitlə canlı orqanizmlərin qarşılıqlı təsirini, əsas qanunauyğunluqları və terminləri, ekosistemi, sistemli dərketmə və biosferin davamlılığını təmin edən mexanizmləri, ətraf mühitə antropogen təsirin xüsusiyyətlərini öyrədir. | 4 |
| 10 | **Geodeziya**<br>Bu fənn Yerin forma və ölçülərinin öyrənilməsinə, ölçmə elmi anlayışına, koordinat sistemləri və üfüqi kontrol şəbəkədə istiqamət və məsafəölçmə gedişlərinin salınmasına, nöqtələrin koordinatlarının təyinetmə metodlarına, yüksəklik sistemlərinə, yüksəkliklərin ölçmə üsullarına, ölkəmizin nivelir şəbəkələrini və digər xüsusi yüksəklik təyin edən üsullara, kəsiklərə, rəqəmsal ərazi modellərini və həcmlərin hesablanmasını öyrənməyə, yer üzərində müxtəlif ərazilərin plan və xəritələrinin hazırlanmasına, inşaat üçün axtarış və layihələndirmə zamanı görülən geodeziya işlərinə, tkintidə bölgü işlərinə, konstruksiya və qurğuların istismarı dövründə çökmə və deformasiyaların müşahidəsi üçün aparılan geodeziya ölçmələrinə diqqət etməlidir. | 14 |
| 11 | **Kartoqrafiya**<br>Bu fənn kartoqrafiyanın tarixinə, kürə üzərində xüsusi əyrilərə, xəritə proyeksiyalarına, çox səthli və etibarlı proyeksiyalara, proyeksiyada olan təhriflərin hesablanmasına, tematik kartoqafiyanın məsələlərinə, tematik xəritələr və tematik Coğrafi İnformasiya Sistemlərinə (CİS), verilənlərin klassifikasiyasına, xəritə elementlərinə və tipoqrafiyaya, kartoqrafik generalizasiyaya, kartoqrafik dizayna, şəhər və qeyri-tikili ərazilərin vizuallaşdırılmasına, CİS bazalı tematik kartoqrafiyaya, riyazi kartoqrafiya və kartoqrafik modelləşdirməyə diqqət etməlidir. | 7 |
| 12 | **Fotoqrammetriya**<br>Bu fənn fotoqrammetriyanın yerquruluşu və daşınmaz əmlakın kadastrında tətbiqinə, fotoqrammetriyanın optik fotoqrafik və riyazi əsaslarına, fotoqrammetriya metodu ilə ölçmə və qiymətləndirmə ilə bağlı əsas biliklərə, aerofotoqrammetriya metodu ilə fotoqrammetrik xəritə, ortofoto, rəqəmli yüksəklik modelinin yaradılmasına, istehsalatla bağlı layihələndirmə prosesinin mərhələlərinə diqqət etməlidir. | 6 |
| 13 | **Coğrafi İnformasiya Sistemləri**<br>Bu fənn Coğrafi İnformasiya Sistemlərinin (CİS) elementlərinə, coğrafi verilənlərin toplanmasına, coğrafi verilənlər bazasının modellərinə və dizaynına, geometrik verilənlərin modellərinə, verilənlərin quruluşu və işlənməsinə, CİS-də məkənsal analiz texnologiyasına, CİS-in tətbiq sahələrinə, CİS-in istifadə edə biləcəyi layihələrə, verilənlərə və xüsusiyyətlərə, vektor və rastr verilənlərlə problemlərin həlli və nəticələrini şərh etməyə diqqət etməlidir. | 6 |
| 14 | **Torpaqşünaslığın əsasları**<br>Bu fənn torpaqəmələgəlmə prosesinin təlimini, torpaqların rejimi, xassələri və əlamətləri barədə bilgiləri, torpaq təsnifatında torpaqəmələgətirən amillərin rolunu öyrədir. Burada ümumi torpaqşünaslığın əsasları, torpaq genezisi məsələləri, Yer biosferində torpağın rolu və funksiyaları, Azərbaycanın əsas torpaq tiplərinin fiziki, kimyəvi, bioloji xüsusiyyətlərinin xarakteristikası açıqlanır. | 5 |
| 15 | **Yerquruluşunun əsasları**<br>Bu fənn torpaq haqqında müasir təlimləri açıqlayır, torpaq ehtiyatlarından səmərəli istifadənin və onların mühafizəsinin elmi-metodiki əsaslarını | 6 |

| | | |
|---|---|---|
| | öyrədir. Fənnin tədrisi prosesində Azərbaycanda torpaq münasibətlərinin formalaşması tarixi araşdırılır, bu münasibətlərin inkişaf perspektivləri müəyyənləşdirilir. Burada yerquruluşunun növləri, formaları şərh edilir, Azərbaycanda yerquruluşu sistemi, onun məqsəd və vəzifələri açıqlanır, yerquruluşu sisteminin xarici modelləri öyrədilir. | |
| 16 | **Kadastrların əsasları**<br>Bu fənn Azərbaycanda mövcud olan sahəvi kadastrların (dövlət meşə kadastrı, dövlət su kadastrı, dövlət şəhərsalma kadastrı, faydalı qazıntı yataq və təzahürlərinin dövlət kadastrı) həyata keçirilməsi üçün zəruri olan qanunvericilik bazası haqqında məlumatları, kadastrlar haqqında ümumi anlayışları, kadastrların tərtibinin metodiki əsaslarını, onların aparılmasının müddəalarını öyrədir. | 5 |
| 17 | **Torpaq bazarı və torpaq ehtiyatlarının idarə edilməsi**<br>Bu fənn bazar iqtisadi münasibətləri şəraitində torpaq ehtiyatlarının idarə edilməsinin nəzəriyyəsini və praktikasını öyrədir. Fənn vasitəsi ilə torpaq bazarını tənzimləyən hüquqi məsələlər açıqlanır, torpaq üzərində mülkiyyət hüququ, mülkiyyətin növləri, formaları, torpaq mülkiyyətçisi olmayan şəxslərin torpaq hüquqları, ölkənin torpaq bazarında həyata keçirilən əqdlərin normativ-hüquqi əsasları şərh edilir. Fənnin tədrisi ilə torpaq ehtiyatlarının dövlət idarəetməsinin müddəaları, sistemləri, üsulları və mexanizmləri öyrədilir, torpaq ehtiyatlarının idarəedilməsinin dünya təcrübəsinə ekskurs edilir. Fənnin tədrisi prosesində torpaq qanunvericiliyinin pozulmasına görə məsuliyyətin növləri şərh edilir, torpaq mübahisələrinin həlli yolları verilir. | 6 |
| 18 | **Torpaq kadastrı**<br>Bu fənn torpaq kadastrının məzmununu, nəzəri və praktiki əsaslarını, müddəalarını, torpaqların dövlət uçotunu, torpaqların bonitirovkasını, torpaqların iqtisadi qiymətləndirilməsinin üsul və qaydalarını öyrədir. Burada Azərbaycanda torpaq kadastrının inkişaf tarixi, müasir torpaq kadastrının dünya kadastr sistemində, Azərbaycanın kadastrlar sistemində, Milli Məkan Məlumatları İnfrastrukturunda yeri və rolu göstərilir. Fənnin tədrisində müasir torpaq kadastrının məlumat modeli açıqlanır, torpaqların texniki uçotu qaydaları, torpaqların qiymətləndirilməsi kimi məsələlər şərh edilir, torpaq kadastrı məlumatlarından torpaqların monitorinqi, mühafizəsi, elmi əsaslarla idarə edilməsi sahəsində bilik və bacarıqlar öyrədilir. | 5 |
| 19 | **Yerquruluşu layihələndirməsi**<br>Bu fənn yerquruluşu layihələndirməsinin nəzəri və praktiki əsaslarını - yerquruluşu layihələndirməsinin metodoloji məsələlərini, metodika və texnologiyasını, yerquruluşu layihə və sxemlərinin - optimal torpaqdan istifadələrin təşkili layihəsini, torpaq islahatına dair layihə və sxemlərini, kənd təsərrüfatı təyinatlı torpaqların yaxşılaşdırılmasına, münbitliyinin mühafizəsinə, torpaqların rekultivasiyasına, yeni torpaqların əkin dövriyyəsinə daxil edilməsinə dair layihə və sxemlərini, dövlət ehtiyacları ilə bağlı torpaqların alınması, bələdiyyələrə, hüquqi və fiziki şəxslərə torpaqların ayrılmasına dair layihə və sxemlərini, ərazi vahidlərinin sərhədlərinin müəyyənləşdirilməsi və dəyişdirilməsi ilə bağlı xəritələrin, bələdiyyələrin dövlət reyestrinə daxil edilməsi məqsədi ilə bələdiyyə xəritələrini, torpaqların kadastr uçotuna alınması ilə bağlı xəritələrin hazırlanması metodikasını öyrədir. | 7 |
| 20 | **Ünvan işi**<br>Bu fənn ünvan işinin təşkili, aparılması və idarə edilməsi məsələlərini | 5 |

| | | |
|---|---|---|
| | öyrədir. Burada ünvanvermə işinin istehsalat prosesi-ünvan nömrələrinin təyini, ünvan lövhələrinin layihələndirilməsi, istehsalı, quraşdırılması məsələləri, həmçinin ünvan reyestrinin tərtibi və aparılmasının, Ünvan Reyestri İnformasiya Sisteminin yaradılmasının əsasları tədris olunur. | |
| 21 | **Daşınmaz əmlakın kadastrı**<br>Bu fənn daşınmaz əmlakın kadastrı işinin təşkili, tərtibi, aparılması və idarə edilməsi məsələlərini öyrədir. Burada daşınmaz əmlakın kadastrının istehsalat prosesinin mərhələləri şərh edilir, torpaqların elektron kadastr uçotu informasiya sisteminin yaradılması texnologiyası açıqlanır, daşınmaz əmlakın kadastrı məlumatlarından istifadə sahələri və mexanizmləri göstərilir. Tədris prosesində daşınmaz əmlakın vahid dövlət kadastrının Milli Məkan Məlumatları Sistemində yeri və rolu açıqlanır. | 6 |
| 22 | **Daşınmaz əmlakın qiymətləndirilməsi və qeydiyyatının əsasları**<br>Fənninin tədrisində məqsəd ölkə ərazisində daşınmaz əmlakın qiymətləndirilməsi qaydalarını, daşınmaz əmlaka mülkiyyət hüququ və digər əşya hüquqlarının, bu hüquqların əmələ gəlməsi, məhdudlaşdırılması (yüklənməsi) və başqasına keçməsinin, onlara xitam verilməsinin dövlət qeydiyyatı, habelə Azərbaycan Respublikası ərazisi üzrə vahid olan daşınmaz əmlakın dövlət reyestrinin aparılması qaydalarını öyrətməkdən ibarətdir. | 6 |
| 23 | **Torpaq hüququ**<br>Bu fənn daşınmaz əmlakın mülkiyyət hüquqlarını, daşınmaz əmlakdan istifadə haqqını, kadastrın hüquqi-normativ aktlarını və müvafiq təlimatları öyrədir. Fənnin tədrisi prosesində Azərbaycanda torpaq hüququnun əsasları verilir, torpaq münasibətlərinin tənzimlənməsi sahəsində təşkilat-hüquqi, idarəetmə və iqtisadi mexanizmləri açıqlanır. Bu fənn vasitəsi ilə gələcək yerquruluşu, kadastr mühəndislərinə həmçinin torpaq mübahisələrinin həlli, torpaq münasibətlərinin hüquqi tənzimlənməsinə dair problemlərin tədqiqi ilə bağlı bilik və bacarıqlar ötürülür, torpaq üzərində hüququn təminatı, qanunvericiliyin pozulmasına görə məsuliyyətin növləri tələbələrə çatdırılır. | 5 |
| 24 | **Torpaqların monitorinqi və mühafizəsi**<br>Fənninin tədrisi prosesində torpaqların monitorinqi və torpaqların mühafizəsi kimi dövlət əhəmiyyətli məsələlər öyrədilir. Torpaqların monitorinqi bölümündə onun məqsəd və vəzifələri şərh edilir, torpaq sahələrinin hüquqi statusu, torpaq sahələrinin kəmiyyət və keyfiyyət göstəriciləri ilə bağlı verilmiş məlumatların yoxlanılması və ekspertizasının keçirilməsi qaydaları şərh edilir. Torpaqların mühafizəsi bölümündə torpaq münbitliyinin bərpası, artırılması və mühafizəsi sahəsində dövlətin, bələdiyyələrin, digər torpaq mülkiyyətçilərinin, istifadəçilərinin və icarəçilərinin vəzifələri, torpaqların mühafizəsi işinin təşkilinə dair metodiki əsaslar tələbələrə çatdırılır. | 5 |
| 25 | **Mülki müdafiə**<br>Bu fənn fövqəladə hallarda tələbə və müəllim heyətinin fəaliyyətini, mülki müdafiə üzrə məşğələlərə hazırlığın metodikasını; müasir qırğın vasitələri ilə zədələnmişlərə ilkin tibbi yardım göstərməkdə, bakterioloji zədələnmə ocaqlarında epidemiya əleyhinə tədbir tətbiq etməkdə vərdişlərin aşılanmasını və diqqət etməlidir. | 3 |
| ... | **Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən fənlər**[1]<br>Burada olan fənlər hər bir ali təhsil müəssisəsi tərəfindən fərdi qaydada müəyyən edilir və həmin ixtisasın tədris planında əksini tapır. | **60** |

| | | |
|---|---|---|
| | **Təcrübələr** | **21** |
| ... | **Buraxılış Yekun Dövlət Attestasiyası** | **9** |
| | **Cəmi** | **240** |

## 4.Tədris və öyrənmə

4.1. Tədris və öyrənmə mühiti elə təşkil olunmalıdır ki, tələbələr təhsil proqramında nəzərdə tutulan təlim nəticələrini əldə edə bilsinlər.

4.2. Tədris və öyrənmə metodları müvafiq sənədlərdə (məsələn, müəllimin sillabusunda və s.) təsvir edilməli və ictimaiyyətə (məsələn, universitetin veb səhifəsində, proqramın broşurlarında və s.) açıq olmalıdır.

4.3. Tədris və öyrənmə metodları innovativ təhsil təcrübələri nəzərə alınaraq davamlı şəkildə nəzərdən keçirilməli və təkmilləşdirilməlidir. Tədris və öyrənmə metodlarının müntəzəm şəkildə təkmilləşdirilməsi universitetin keyfiyyət təminatı sisteminin bir hissəsi olmalıdır.

4.4. Təlim prosesində fərqli tədris metodlarından istifadə edilməlidir. Bu metodlar tələbəyönümlü yanaşmanı və tələbələrin təlim prosesindəki fəal rol oynamasını təşviq etməlidir. İstifadə edilə biləcək tədris və öyrənmə metodlarına aşağıdakıları nümunə olaraq göstərmək olar:

- mühazirə, seminarlar, praktiki tapşırıqlar;
- təqdimatlar və müzakirələr, debatlar;
- müstəqil iş/araşdırma (məsələn, praktiki nümunələrlə iş);
- layihələr;
- problemlərə əsaslanan tədris;
- sahə işləri;
- rol oyunları;
- hesabatlar;
- qrup qiymətləndirməsi;
- ekspert metodu;
- video və audio konfrans texnologiyaları;
- video və audio mühazirələr;
- distant təhsil;
- simulyasiyalar və s.

*Qeyd: sadalanan metodlar ixtisasın spesifikasından asılı olaraq seçilə və (və ya) dəyişdirilə bilər.*

4.5. Təhsildə nəzəriyyə və praktiki təlim arasında tarazlıq gözlənilməlidir. Əsas diqqət əmək bazarının dəyişən ehtiyaclarına uyğun olaraq praktiki bacarıqların gücləndirilməsinə yetirilməlidir.

4.6. Təhsil proqramı tələbələrin müstəqilliyini dəstəkləməli və ömürboyu təlim konsepsiyasını inkişaf etdirməlidir. Təhsil prosesinin sonunda tələbə hər hansı istiqamətdə müstəqil işləyə bilməli və təhsilini ömürboyu davam etdirməyi bacarmalıdır.

## 5.Qiymətləndirmə

5.1. Qiymətləndirmə elə təşkil olunmalıdır ki, tələbələrin gözlənilən təlim nəticələrini əldə etmələri səmərəli şəkildə ölçülə bilinsin. Bu, əldə olunan irəliləyişi monitorinq etməyə, təhsil proqramlarının nəticələrinə hansı dərəcədə nail olunduğunu qiymətləndirməyə, tələbələrlə fikir mübadiləsinə şərait yaratmağa və təhsil proqramlarının təkmilləşdirilməsi üçün ilkin şərtlərin formalaşdırılmasına yardım etməlidir.

5.2. Qiymətləndirmə üsulları müvafiq sənədlərdə (məsələn, fənn proqramında, sillabusda və s.) təsvir edilməli və hamı üçün açıq olmalıdır (məsələn, universitetin veb səhifəsində, proqramın broşurlarında və s.).

5.3. Qiymətləndirmə üsulları innovativ tədris təcrübələri nəzərə alınaraq davamlı şəkildə nəzərdən keçirilməli və təkmilləşdirilməlidir. Qiymətləndirmə üsullarının müntəzəm şəkildə yenilənməsi ali təhsil müəssisəsinin keyfiyyət təminatı sisteminin bir hissəsi olmalıdır.

5.4. Tədris prosesində fərqli qiymətləndirmə üsullarından istifadə edilməlidir. Bu üsullar tələbəyönümlü yanaşmanı və tələbələrin təlim prosesindəki fəal rol oynamasını təşviq etməlidir. İstifadə edilə biləcək qiymətləndirmə üsullarına nümunələr:

- yazılı tapşırıqlar;
- bilik və bacarıqlara dair testlər, kompyuter əsaslı testlər;
- şifahi təqdimatlar;
- sorğular;
- açıq müzakirələr;
- praktika hesabatları, sahə işləri hesabatları;
- praktikada, laboratoriyada müşahidələrə əsasən bacarıqların qiymətləndirilməsi;
- layihə işlərinə dair hesabatlar;
- portfolionun qiymətləndirilməsi;
- frontal sorğu;
- qrup şəklində və özünü qiymətləndirmə;
- və s.

*Qeyd: sadalanan üsullar fənnin spesifikasından asılı olaraq seçilə və ya dəyişdirilə bilər.*

5.5. Təlim nailiyyətlərinin qiymətləndirilməsində istifadə olunan üsullar aydın müəyyənləşdirilmiş meyarlara əsaslanmalı və təhsil müddətində tələbənin əldə etdiyi bilik, bacarıq və qabiliyyət səviyyəsini düzgün və etibarlı şəkildə müəyyən etməyə imkan verməlidir. Təlim nəticələrinin qiymətləndirilməsi zamanı müəllimlər şəffaflıq, qərəzsizlik, qarşılıqlı hörmət və humanistlik prinsiplərini rəhbər tutmalıdırlar.

5.6. Tələbələrə müəllimlərlə/qiymətləndiricilərlə təhsillərinin bütün aspektlərini, o cümlədən qiymətləndirmə prosesini müzakirə etmək imkanı verilməlidir. Ali təhsil müəssisəsi qiymətləndirmə prosesi, yaxud qiymətlə bağlı apelyasiya prosedurlarını müəyyən etməlidir.

5.7. Akademik etika təhsil prosesində önəmli yer tutur. Tələbələrə akademik dürüstlüyə riayət etmək, plaqiatlıq problemini anlamaq öyrədilir. Onlar intellektual əməyin əqli mülkiyyət hüquqları barəsində məlumatlandırılmalıdırlar.

## 6.Proqramın və hər bir fənnin təlim nəticələri

6.1. Təhsil proqramının təlim nəticələri, eləcə də hər bir fənnin təlim nəticələrinin müəyyənləşdirilməsi və hər bir fənnin sillabusunun hazırlanması ali təhsil müəssisəsinin/akademik heyətin səlahiyyətindədir.

6.2. Təlim nəticələri hər bir ali təhsil müəssisəsi tərəfindən Əlavə 1-dəki formaya uyğun olaraq müəyyənləşdirilir.

6.3. Təhsil Proqramının cəmiyyətin və əmək bazarının dəyişən ehtiyaclarına cavab verən nəzəri və praktiki məzmunu təmin etməsi məqsədilə fənlərin sillabusları müntəzəm şəkildə yenilənməlidir.

## 7. İnfrastruktur və kadr potensialı

7.1. "050710-Yerquruluşu və daşınmaz əmlakın kadastrı" ixtisasının təhsil proqramına müvafiq hazırlanmış tədris planında nəzərdə tutulan fənlər üzrə dərslərin aparılması, təcrübələrin keçirilməsi və elmi-tədqiqat işlərinin yerinə yetirilməsi üçün müvafiq İKT ilə təchiz olunmuş auditoriyalar, laboratoriyalardan ibarət maddi-texniki bazası olmalıdır. Təhsilalanların ali təhsil müəssisəsinin lokal şəbəkəsinə, internetə, məlumat bazalarına, elektron kitabxanalarına, axtarış sistemlərinə çıxışı təmin edilməlidir.

7.2. Ali təhsil müəssisələrinin professor-müəllim heyəti bir qayda olaraq elmi dərəcəyə malik olmalıdır.Digər müəssisələrdən də mütəxəssislər tədrisə cəlb oluna bilərlər.

## 8. Təcrübə

8.1. Təcrübə tələbənin nəzəri biliklərinin praktikada tətbiqi, eləcə də peşə bacarıqlarının gücləndirilməsi baxımından önəmlidir. İxtisas xüsusiyyətindən asılı olaraq təcrübənin təşkili qaydaları ali təhsil müəssisəsi tərəfindən müəyyən oluna bilər.

8.2. Təcrübə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin, ASAN Xidmət Mərkəzlərində Daşınmaz Əmlakın Qiymətləndirilməsi sektorunda, tikinti şirkətlərində (eləcə də Azərbaycan Milli Elmlər Akademiyası, universitet, yaxud beynəlxalq təşkilat və şirkətlərdə və s.) təşkil oluna bilər.

8.3. Təcrübənin əsas vəzifələri aşağıdakılardan ibarətdir: tələbənin aldığı nəzəri bilikləri möhkəmləndirmək, dərinləşdirmək və sonrakı əmək fəaliyyətində istifadəsini təmin etmək; ixtisasın profilindən və xüsusiyyətindən asılı olaraq yeni texnologiyalarla, iş üsulları ilə, elmi-tədqiqatlarla və digər məsələlərlə tanış etmək; tələbələrdə işgüzarlıq, təşkilatçılıq və kommunikativ vərdişləri aşılamaq; tələbələrin kompüter texnologiyaları sahəsindəki biliklərini təkmilləşdirmək və s.

8.4. İstehsalat təcrübəsi təhsil müəssisəsi ilə istehsalat müəssisələri arasında bağlanmış ikitərəfli müqavilələr əsasında həyata keçirilir. Həmin müqavilələrə əsasən mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq istehsalat müəssisələri ali təhsil müəssisələri tələbələrinin təcrübə keçmələri üçün təcrübə yerləri ayırırlar.

8.5. Ali təhsil müəssisəsi: hər təqvim ilinə müəssisələrlə müqavilə bağlayır, istehsalat təcrübəsinin proqram və qrafikini onlarla razılaşdırır; təcrübə bazasının profilini nəzərə almaqla ixtisası uyğun gələn və kifayət qədər iş təcrübəsi olan professor-müəllim heyəti sırasından təcrübə rəhbəri təyin edir; təcrübə keçirilən müəssisəni, eləcə də tələbələri müvafiq proqramlarla təmin edir; təcrübənin müəyyən olunmuş müddətdə keçirilməsinə və məzmununa nəzarət edir; zəruri hallarda təcrübəyə göndərilən tələbələrin tibbi müayinədən keçməsini təşkil edir.

8.6. İstehsalat müəssisələri: tələbələrin təcrübəsini təşkil edir və keçirir; kifayət qədər təcrübəsi olan işçilər arasından təcrübə rəhbərini təyin edir; tələbələrə təcrübə proqramı əsasında təcrübə yerlərini müəyyən edir; tələbələrin texniki sənədlərdən və ədəbiyyatdan, kompüter və çoxaldıcı texnikadan istifadəsinə imkan yaradır; tələbələri əmək mühafizəsi və təhlükəsizlik, müəssisənin daxili nizam-intizam qaydaları üzrə müvafiq təlimatlarla təmin edir; təcrübə keçən tələbələri qanunvericilikdə nəzərdə tutulmuş hallar istisna olmaqla, vakansiya olduqda, müvafiq vəzifələrə təyin edir; təcrübə müddətində istehsalat müəssisəsinin təqsiri üzündən baş verə biləcək bədbəxt hadisələrə cavabdehlik daşıyır.

8.7. Təcrübə rəhbərləri həm təhsil, həm də istehsalat müəssisəsinin işçilərindən təyin olunurlar. Tədris təcrübəsi fənnin davamı olduğu halda, bu təcrübəyə rəhbər kimi həmin fənni tədris edən müəllim təyin edilir.

8.8. Təhsil müəssisəsi tərəfindən təyin olunan rəhbər: istehsalatdan olan rəhbərlə birlikdə təcrübənin keçirilməsinə dair işçi proqramını hazırlayır; tələbələrin əmək mühafizəsi və təhlükəsizlik texnikası qaydalarına riayət etmələrinə cavabdehlik daşıyır; tələbələrə fərdi tapşırıqların, təcrübə mövzularının müəyyənləşdirilməsində və onların iş yerlərinə təhkim olunmasında iştirak edir; tələbələrə fərdi tapşırıqların yerinə yetirilməsində metodiki yardım göstərir və onlara buraxılış işi üçün lazım olan materialların toplanmasında kömək edir; tələbələrə təcrübə proqramının yerinə yetirilməsi barədə hesabat tərtib edilməsində metodiki yardım göstərir.

8.9. Tələbə gündəliyi və hesabatı komissiyaya təqdim etməklə müdafiə edir və nəticələri 100 bala qədər qiymətləndirilir.

## 9. Buraxılış Yekun Dövlət Attestasiyası

9.1. Təhsil proqramı təhsilalanların Buraxılış Yekun Dövlət Attestasiyası ilə yekunlaşır. Yekun Dövlət Attestasiyasına tədris planının bütün şərtlərini yerinə yetirmiş, nəzərdə tutulmuş fənlər və təcrübələr üzrə kredit qazanmış tələbələr buraxılırlar. Buraxılış Yekun Dövlət Attestasiyasının təşkili və keçirilməsi qaydaları Azərbaycan Respublikasının Nazirlər Kabinetinin və Təhsil Nazirliyinin müvafiq normativ-hüquqi sənədləri əsasında keçirilir.

## 10. Məşğulluq və ömürboyu təhsil

10.1. **"050710-Yerquruluşu və daşınmaz əmlakın kadastrı"** ixtisası üzrə Təhsil Proqramının Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin müvafiq strukturlarında, ASAN Xidmət Mərkəzlərində Daşınmaz Əmlakın Qiymtələndirilməsi sektorunda, tikinti şirkətlərində geodeziya mühəndisi, toporqafiya və xəritəçəkmə, eyni zamanda strateji idarəetmə mütəxəssisi, istehsalat mütəxəssisi, layihə meneceri kimi çalışa bilərlər.

10.2. Ali təhsil müəssisəsi Təhsil Proqramının məzunlarının məşğulluğuna dair müntəzəm sorğular keçirməli, eləcə də vakant iş yerlərinə dair məlumatları öz veb səhifəsində yerləşdirməlidir.

10.3. Təhsil Proqramının müvafiq vakansiyalar barədə tələbələr məlumatlandırılır və həmin məlumatlar veb saytda yerləşdirməlidir.

10.4. "050710-Yerquruluşu və daşınmaz əmlakın kadastrı" ixtisası üzrə Təhsil Proqramının məzunları təhsillərini magistratura səviyyəsinin "Yerquruluşu, torpaq və şəhər kadastrı", "Geodeziya və xəritəçilik mühəndisi" ixtisasları qrupuna daxil olan müvafiq ixtisaslaşmalarda davam etdirə bilərlər.

10.5. Təhsil müddətində əldə olunan bilik, bacarıq və yanaşmalar məzunların müstəqil şəkildə ömürboyu təhsil almaları üçün ilkin şərtlərdəndir.

**Razılaşdırılmışdır:**

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Aparat rəhbərinin müavini,

Elm, ali və orta ixtisas təhsil şöbəsinin müdiri

_____________ ***Yaqub Piriyev***

"19" 08 __________2020-ci il

Kənd təsərrüfatı ixtisasları qrupu üzrə Dövlət Təhsil Proqramlarını hazırlayan işçi qrupun sədri

_____________ ***İbrahim Cəfərov***

"18" 08 __________2020-ci il

AZƏRBAYCAN RESPUBLİKASI KƏND TƏSƏRRÜFATI NAZİRLİYİ AZƏRBAYCAN DÖVLƏT AQRAR UNİVERSİTETİ